**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞAXƏLƏNDİRİLMİŞ İQTİSADİYYATIN İNFRASTRUKTUR TƏMİNATININ İQTİSADİ-TƏŞKİLATİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: **5312.01 – "Sahə iqtisadiyyatı"**

Elm sahəsi: **İqtisad elmləri**

İddiaçı: **Xanlar İlqar oğlu Qəniyev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə – 2021**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tikinti-iqtisad fakültəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Məhəbbət Aşır oğlu Məmmədov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Elşən Mahmud oğlu Hacızadə**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**İsmayıl Cəfər oğlu Həsənov**

iqtisad üzrə fəlsəfə doktoru,
**Təbriz Abdulla oğlu Yadigarov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, i.e.d. professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: ____________ Əməkdar kənd təsərrüfatı işçisi, iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya mövzusunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan iqtisadiyyatının tərəqqisi ölkənin milli iqtisadiyyatının yeni struktur quruluşunu, təbii sərvətlərin hasilat sektorunun aparıcı mövqelərinin zəiflənməsini, innovativ istehsalın meydana gəlməsini və inkişafının stimullaşdırılmasını tələb edir. İnnovativ istehsal müvafiq infrastruktur olmadan səmərəli fəaliyyət göstərə bilməz. İnfrastruktur milli iqtisadiyyatın normal işləməsini təmin etməklə yanaşı, həm də müasir iqtisadiyyatın ən vacib müasir çağırışlarına davam gətirməyə imkan verir.

Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda üçüncü Sənaye inqilabının həyata keçirilməsi məsələləri geniş müzakirə olunmuşdur. Eyni zamanda dördüncü Sənaye inqilabının həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir. Bu məsələni ölkə prezidenti İ.Əliyev öz çıxışlarında dəfələrlə qeyd etmişdir.

Müasir şəraitdə istehsal və kommunal infrastrukturun formalaşması yeni mülkiyyət formalarının inkişafı, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına təlabat, elmi-texniki tərəqqinin nəticələrinin, innovasiya texnologiyaların həyata keçirilməsi, əmək bölgüsünün yeni formalarının mənimsənilməsi və iqtisadiyyat sahələrinə investisiya axınının artması ilə şərtləndirilir. Ona görə də, infrastruktur layihələrinin hazırlanması və reallaşdırılması ilk növbədə, ölkədə aparılan struktur islahatların nəticələri ilə birbaşa əlaqədə aparılır.

Qeyd etmək lazımdır ki, aparılan islahatların mərkəzinin rayon və yerli obyektlərə köçürülməsi həmin obyektlərdə müxtəlif problemlərin toplanmasına gətirib çıxara bilər. Onlar isə öz növbəsində, bu münasibətlərin inkişafını zəiflədə, yaxud da ona mane ola bilər. Bunların sırasında ən təhlükəli nəticə isə bölgələrdə iş yerlərinin azalması ola bilər. Bununla əlaqədar olaraq bazar münasibətlərinin inkişafı və ölkədə aparılan islahatlar nəzərə alınaraq, istehsal və kommunal infrastrukturun dövlət tərəfindən tənzimlənməsinin yeni nəzəri və metodoloji yanaşmalarının işlənib hazırlanması tələb olunur. Bu məsələnin səmərəli həlli üçün müvafiq dövlət orqanlarına bölgələrdə istehsal və kommunal obyektlər haqqında mütəmadi məlumatların təqdim edilməsi məqsədəuyğundur. Eyni zamanda, ölkənin

konkret iqtisadi rayon və bələdiyyələri üzrə infrastruktur layihələrinin işlənməsi və infrastruktur obyektlərin tikintisinin planlaşdırılması haqqında dəqiq statistik hesabatlar sistemi yaradılmalıdır. Digər tərəfdən infrastruktur sahələrinin inkişafına yönəldilən daxili və xarici investisiyaların optimal şəkildə həyata keçirilməsi məsələsi də mütləq müvafiq dövlət qurumların diqqət mərkəzində olmalıdır. Bu baxımdan müasir infrastruktur siyasətinin səmərəli istifadə istiqamətlərinin və onun həyata keçirilməsi mexanizmlərinin tədqiqi aktual problem olmaqla yanaşı, həm də xüsusi əhəmiyyətə malik məsələdir.

İstehsal və kommunal infrastruktur sektorunun davamlı inkişafında dövlət tənzimləməsi ilə əlaqədar məsələlərin tədqiqi kompleks nəzəri-metodoloji yanaşmada aparılmışdır. İnfrastruktur problemlərin tədqiqi ilə Azərbaycan iqtisadçı-alimləri Səmədzadə Z.A., Nuriyev Ə.X., Məmmədov M.A., Əliyev T.N., Vəliyev T.S., Cəbiyev R.M., Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. və başqalarının əsərlərində infrastruktur təminatının bir sıra nəzəri-metodoloji və praktiki məsələləri, onun iqtisadi-təşkilatı mexanizmlərin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tövsiyələr hazırlamışlar. Xarici ölkə alimlərindən - Lewis W.A., Donald Coffelt, Chris Hendrickson, Gerardus Blokdyk, Craig Taylor, Qonçarov V.N., Kirillova A.N., Ribtsev V.V., Safronova N.B. və başqalarının infrastruktur təminatının iqtisadi inkişaf mexanizmlərinə dair əsərləri diqqəti daha çox cəlb edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi milli iqtisadiyyatın davamlı inkişafının təmin olunmasının əsas amillərdən biri kimi istehsal və kommunal infrastrukturu götü-rülmüşdür. Tədqiqat işinin predmetini bazar münasibətləri şəraitində milli iqtisadi inkişafda istehsal və kommunal infrastrukturunun rolunun artırılmasına təkan verən iqtisadi münasibətlər və şərtlər təşkil edir.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi - milli iqtisadiyyatın inkişafında infrastrukturla bağlı problemlərin tədqiqi, mövcud potensialdan səmərəli istifadə, mütərəqqi bazar mexanizmlərinin tətbiqi, şaxələndirilmiş iqtisadiyyatın infrastruktur təminatının təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi və real sektorunun davamlı inkişafında infrastrukturun stra-

teji rolunun artırılması istiqamətlərində təklif və tövsiyələr irəli sürməkdir. Dissertasiya işinin məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Şaxələndirilmiş iqtisadiyyatın inkişafında istehsal infrastrukturunun məzmunu və funksiyalarını müəyyən etmək və təsnifatlaşdırmaq;
- Müasir şəraitdə istehsal və kommunal infrastruktur sistemlərinin əsas inkişaf meyllərini tədqiq etmək;
- İnfrastruktur sistemlərin inkişafının tənzimlənməsinin nəzəri-metodoloji əsaslarını yeni yanaşmalar ilə qiymətləndirilməsi;
- Milli iqtisadiyyatın istehsal və kommunal infrastrukturunun inkişafının müasir vəziyyəti və perspektiv inkişaf istiqamətlərini təhlil etmək;
- Kommunal xidmətlərin infrastrukturunun inkişaf dinamikasını araşdırmaq və təkliflər hazırlamaq;
- Şaxələndirilmiş iqtisadiyyat sahələrində enerji təminatı infrastrukturlarının mövcud potensialının qiymətləndirilməsi;
- İstehsal infrastrukturu sistemlərinin inkişaf strategiyasının formalaşdırılması və proqnozların əsaslandırması;
- İstehsal infrastrukturun tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi;
- Kommunal infrastruktur sahəsində institusional islahatların səmərəliliyinin təhlil edilməsi və konkret təkliflərin hazırlanması.

**Tədqiqat metodları.** Dissertasiya işinin hazırlanmasında statistik, analitik, müqayisəli, sistemli və ekspert qiymətləndirmə, retrospektiv, struktur təhlil və məntiqi araşdırma kimi tədqiqat metodlarından istifadə olunmuşdur. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, İqtisadiyyat, Maliyyə Nazirliklərinin hesabat və məlumatları, iqtisadiyyatın sahələrində infrastruktur inkişafının təminatı üzrə aparılan dövlət siyasətini tədqiq edən nəşrlər və sahə infrastrukturunun potensialdan səmərəli istifadənin aparıcı təşkilatların nəzəri və praktiki əhəmiyyət daşıyan nəşr edilmiş ədəbiyyatlar, respublika üzrə qəbul olunmuş normativ-hüquqi

bazanın məlumatları təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın elmi yeniliklərindən və əldə edilmiş nəticələrindən irəli gələn aşağıdakı bir sıra əsas müddəalar müdafiəyə çıxarılır:

- infrastrukturun bütün iqtisadi sistemin bütövlüyünün əsas elementi və iqtisadi həyatın ümumi quruluşunun mühüm tərkib hissəsi kimi, ölkə iqtisadiyyatında təsərrüfat fəaliyyətinin normallaşdırılmasına xidmət edən yardımçı və köməkçi funksiyaları yerinə yetirməsi xüsusiyyətlərini özündə cəmləşdirməsi aktuallıq təşkil edir.
- infrastruktur ümumi təsərrüfat kompleksi ilə inteqrasiya olunaraq intensivləşdirmənin və onun səmərəliliyinin yüksəldilməsinin zəruri amilinə çevrilir, bununla da iqtisadiyyatın investisiya cəlbediciliyinin formalaşdırılması, iqtisadi artım və əhalinin sosial rifah səviyyəsinin yüksəlməsi ehtimalları artır.
- istehsal və kommunal infrastruktur sistemlərinin milli iqtisadiyyatın elementlərinin məcmusu kimi bazarın normal fəaliyyətinin təmin olunması və inkişafına xidmət etməsi vacib hesab edilir.
- ölkə iqtisadiyyatının infrastruktur kompleksinin innovasiyaların tətbiqi istiqamətində inkişaf etdirilməsi geniş miqyaslı, qabaqlayıcı elmi-araşdırmaların aparılmasını, iri elmi-praktiki problemlərin həll edilməsini, infrastruktur sahəsinin səmərəli fəaliyyət göstərməsini və istehsal infrastrukturunun milli iqtisadiyyatla qarşılıqlı təsir sxeminin tərtibini tələb edir.
- istehsal və kommunal infrastruktur təminatı modelinin işlənilib hazırlanmasına diqqət artırılmalıdır.
- yeni informasiya texnologiyalarının hazırlanması və reallaşdırılması, həmçinin təbii və süni mənşəli destruktiv amillərin təsirinin azaldılması üçün yeni prinsiplərin işlənilməsinə, bunların əsasında isə istehsal infrastrukturu və informasiya xidmətləri bazarının əlaqələndirilməsinə xüsusi diqqət yetirilməlidir.
- istehsal infrastrukturu sahəsində təklif edilən xidmətlərin keyfiyyətinə nəzarətin forma və üsullarının təkimilləşdirilməsi zərurəti yaranmışdır.
- dövlət və müəssisələr arasında istehsal infrastrukturunun yaradılması və inkişafı ilə bağlı xüsusi idarəetmə modelinin formalaşması vacib hesab edilir.

- energetika müəssisələrinin, ilk növbədə, iri istehsal gücü olan müəssisələrin mürəkkəb avadanlıqlarının idarə edilməsi üçün xüsusi texniki təhsilli mütəxəssislərə ehtiyac yaranmışdır.

- kommunal infrastruktur sahəsində institusional islahatların aparılmasının SWOT təhlilinə əsaslanması vacib hesab edilir.

- Strateji Yol Xəritəsində kommunal infrastruktur sahəsində təsbit olunmuş başlıca strateji hədəflərə - kommunal xidmətlər sektorunun dayanıqlı və səmərəli tənzimlənməsinə nail olunması üçün prioritetlər müəyyənləşdirilmişdir.

- kommunal xidmətlərin göstərilməsinin səmərələşdirilməsi məqsədilə xüsusi maliyyə fondunun yaradılması önəmlidir.

- kommunal xidmətlərin keyfiyyətinin artırılması və kadr siyasətinin yenidən qurulmasına diqqət artırılmalıdır.

- kommunal sektorda qanunvericilik aktlarının təkmilləşdirilməsi zərurəti yaranmışdır.

**Tədqiqatın elmi yeniliyi** iqtisadiyyatın şaxələndirilmiş infrastrukturun davamlı inkişafının təmin edilməsində fəaliyyət istiqamətlərin tədqiqi, dövlətin strateji rolunun artırılması problemlərinin öyrənilməsi, bu sahədə səmərəliliyinin yüksəldilməsini təminetmə potensial imkanlarını müəyyən edərək sistemləşdirilməsi və bunun həlli ilə əlaqədar məqbul mexanizmlərin təyin edən metodoloji prinsiplər elmi, nəzəri və praktiki işləmələrin təkmilləşdirilməsini əhatə edir.

Dissertasiya işinin **elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Tədqiqat istiqamətləri üzrə infrastruktur təminatı vəziyyəti araşdırılmışdır;
- İstehsal infrastrukturunun əsas elementləri tədqiq edilmiş və təsnifatlaşdırılmışdır;
- İstehsal infrastrukturunun iqtisadiyyatın tədqiq olunan şaxələndirilməsi ilə qarşılıqlı təsir sxemi tərtib edilmişdir;
- İstehsal infrastrukturu, informasiya təminatı və maddi istehsalın qarşılıqlı təsir əlaqəsi müəyyən olunmuşdur;
- İstehsal infrastrukturunun idarəedilməsi inkişafı modeli təklif edilmişdir;
- İstehsal sahələrinin infrastruktur təminatı təhlil edilmiş və

dəyərləndirilmişdir;

- Energetika sektorunun infrastruktur elementləri tədqiq edilmiş və qiymətləndirilmişdir;
- Abşeron iqtisadi regionunda sahələr üzrə həyata keçirilən enerji təminatının potensialı müəyyən edilmişdir;
- İstehsal infrastrukturlarının enerji təminatı potensialı səviyyəsi araşdırılmış, infrastruktur təminatının kompleks qiymətləndirilmə metodu təklif edilmişdir;
- Azərbaycan Respublikasının kommunal infrastruktur sahəsinin SWOT təhlilinin aktual istiqamətləri müəyyən edilmişdir;
- Ölkənin 2025-ci ilə qədər kommunal infrastrukturun perspektiv inkişafının institusional strateji hədəflərinin dəqiqləşdirilməsi təklif olunmuşdur (bax: sxem 1.).

**Dissertasiya işinin nəticələrinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələri iqtisadiyyatın infrastruktur sektorunda dövlətin strateji rolunun artırılması üzrə mövcud işləmələri zəngiləşdirməyə imkanlar yaradır. Həmçinin tədqiqatla hasil edilən yeni nəzəri baxışlardan bir sıra iqtisadiyyat fənlərinin tədrisində əlavə dərs vəsaiti qismində istifadə oluna bilər. Dissertasiyada hazırlanmış təkliflər və elmi yeniliklər ölkədə şaxələndirilmiş iqtisadiyyatın infrastruktur təminatının iqtisadi-təşkilati yaxşılaşdırılması, müvafiq infrastruktur xidmətinə olan tələbatın təmin edilməsi və təkmilləşdirilməsinin həllinə imkan verir. Tədqiqatın yekununda alınmış nəticələr və verilmiş təkliflər infrastruktur təminatının iqtisadi-təşkilati mexanizminin hazırlanması və təkmilləşdirilməsi ilə əlaqədar strateji yönümlü konsepsiyaların və qanunların hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın nəticələrin aprobasiyası və işin nəticələrinin tətbiqi.** Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İB-nə təqdim olunmuş, müvafiq qiymətləndirmə mərhələlərdən keçərək müəyyən elmi tövsiyələrin tətbiqi haqqında arayış alınmışdır (rəy:17 mart 2021-ci il). Dissertasiya işinin əsas nəticələri müxtəlif elmi-praktiki konfranslarda tədqiqatın nəticələri üzrə ümumilikdə 15 elmi əsər o cümlədən xaricdə 4 elmi məqalə və 1 tezis dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan

Memarlıq və İnşaat Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi tədqiqatın predmetinə, obyektinə, məqsəd və vəzifələrinə görə müəyyən edilmişdir. Dissertasiya işinin strukturu girişdən, üç fəsildən, doqquz paraqrafdan, əldə olunan nəticələrdən, istifadə olunan mənbə və ədəbiyyat siyahısından ibarətdir. Üz qabığı və mündəricat (2509 işarə), giriş (11 762 işarə), I fəsil (80 337 işarə), II fəsil (63 999 işarə), III fəsil (48 816 işarə), nəticə (9705 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (18 699 işarə) üzrə ümumi həcmi 235 797 min işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, qrafiklər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 219 228 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı, tədqiqatın məqsədi və vəzifələri, predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, problemin öyrənilmə vəziyyəti, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti, işin aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiya işinin "**Şaxələndirilmiş iqtisadiyyatın istehsal infrastruktur təminatının nəzəri-metodoloji aspektləri**" adlı birinci fəslində şaxələndirilmiş iqtisadiyyatın inkişafında istehsal infrastrukturunun rolu və funksiyaları, müasir şəraitdə istehsal infrastruktur sistemlərinin struktur xüsusiyyətləri, infrastruktur sistemlərin inkişafın tənzimlənməsinin nəzəri-metodoloji əsasları kimi məsələləri tədqiq edib.

Müasir iqtisadi nəzəriyyələrdə istehsal infrastrukturlarının təhlillərin aparılması aktual və zəruri məsələ qalır. İqtisad elmində "infrastruktur" anlayışı ilk dəfə burjua "siyasi iqtisadı"nda ötən əsrin 40-cı illərinin sonlarında işlədilmişdir. Bununla bağlı yanaşmaların tədqiqinə əsaslanaraq xüsusi qeyd etmək lazımdır ki, "infrastruktur" anlayışına bir neçə kontekstdə baxmaq olar. Tarixi kontekstdə infrastruktur anlayışı maddi istehsalın genişlənməsi və artması, ictimai əmək bölgüsünün dərinləşməsi, ticarət şaxələnməsinin çoxalması

aspektlərində dəyərləndirilir[1] və eyni zamanda prosesin inkişaf etməsinin ayrı-ayrı mərhələlərində onun dəstəklənməsi, xidmət göstərilməsi üçün ayrı-ayrı funksiyalar ayrılaraq məcmu halında infrastruktur elementlərinə çevrilməsi məsələsi də ciddi elmi müşahidə və araşdırma predmeti kimi diqqəti cəlb edir.

Lakin, eyni zamanda infrastruktur anlayışının məzmunu şərh edilərkən onun iqtisadi səmərəliliyinin müəyyən olunması prosesindəki yeri və rolu məsələsi daimi prioritet olmuşdur. Xüsusi olaraq qeyd edilməlidir ki, istənilən iqtisadi fəaliyyətin səmərəliliyi əhəmiyyətli dərəcədə infrastrukturun vəziyyətindən asılıdır: ictimai əmək bölgüsü nə qədər dərindirsə, istehsalın ictimailəşdirilməsi prosesi də bir o qədər mürəkkəbdir, eyni zamanda infrastrukturun və istehsal şəraitinin istehsal qüvvələrinin vəziyyətinə təsiri daha aşkar hiss olunur. Əski praktikada uzun illər ərzində infrastruktura, xüsusən də istehsal infrastrukturuna kifayət qədər fikir verilməmişdir. Tədqiqat zamanı istehsal infrastrukturunun ümumiləşdirilmiş və dəqiqləşdirilmiş sxemi bizim tərəfimizdən şəkil 1-də əks olunmuşdur.




**Şəkil 1. İqtisadi sahələrin istehsal infrastrukturunun tərkibi[2]**

---

[1] Деминг, Э. Выход из кризиса: Новая парадигма управления людьми, системами и процессами / Э. Деминг; Пер. с англ. - 5-е изд. - М.: Альпина Паблишер, 2012. — 419 с.

[2] Şəkil mənbə [Гончаров В.Н. Эффективность производственной инфраструктуры предприятия/ Гончаров В.Н., Бурбело О.А., Вавин А.И..- Луганск: 4-е издание, учебное пособие, Изд-во Луганск, 2012.- 167 с., s.125] əsasında müəllif tərəfindən tərtib olunub.

İstehsal infrastrukturunun əsas vəzifəsi maşınların, mexanizmlərin, binaların, tikililərin aşınması və istismara yararsız hala düşməsini əvvəlcədən müəyyən edərək, müəssisə və şirkətlərin müvafiq strukturlarının məlumatın verilməsi, həmçinin normativ tələblərə müvafiq təmir işlərinin aparılmasını və onların istismara hazır vəziyyətə gətirilməsinin təşkil edilməsindən ibarətdir. Bütün bu qeyd edilənlərə əsasən istismar prosesinin səmərəli təşkili, avadanlıqların normativ tələblərə müvafiq profilaktikasının aparılması nəticəsində mümkündür.

Qeyd etmək lazımdır ki, müasir istehsal infrastrukturu mürəkkəb kompleksdir, elm tutumlu, yüksək məhsuldarlığı ilə seçilən texnoloji avadanlığa, mütərəqqi avadanlıqlara, istehsalın müasir idarəetməsi və təşkili üsullarına əsaslanır. Bununla əlaqədar olaraq, tədqiqatda iqtisadi regionların infrastrukturunun inkişafını xarakterizə edən əsas anlayışların şərhi xüsusiyyətləri əks olunmuşdur.

İstehsal infrastrukturunun inkişaf etməsinin əsas istiqamətləri kimi onun səmərəliliyinin yüksəldilməsi, texnoloji vasitələrin, ehtiyat hissələrinin hazırlanması, həmçinin təmir işlərinin, nəqliyyat anbar əməliyyatlarında innovasiya texnologiyasının tətbiqi nəticəsində infrastrukturun təkmilləşdirilməsi prioritet məsələdir. Belə olan halda əsas və yardımçı fəaliyyətin sistemli qarşılıqlı əlaqələrinin optimallaşdırılması və sistemləşdirilməsi üçün bir sıra hallarda onların qarşılıqlı əvəz edilməsinə şərait yaradılır.

Dissertasiyanın "**Azərbaycanda şaxələndirilmiş iqtisadiyyatın müasir vəziyyətinin və inkişafının qiymətləndirilməsi"** adlı ikinci fəslində milli iqtisadiyyatın istehsal infrastrukturunun inkişafının müasir vəziyyəti və perspektiv istiqamətləri, kommunal xidmətlərin inkişaf dinamikasının təhlili, şaxələndirilmiş iqtisadiyyat sahələrinin enerji təminatı infrastrukturlarında mövcud potensialın qiymətləndirilməsi kimi elmi istiqamətlər araşdırılıb.

İnfrastrukturun inkişafının müasir vəziyyəti və inkişaf dinamikası sahələrin cari artım tempinə və ərazilərin kompleks inkişaf səviyyəsinə uyğun olmaqla mütəmadi olaraq həmin səviyyələri qabaqlamalıdır. Məhz belə bir vəziyyət iqtisadiyyatın rəqabətqabiliyyətli məhsul istehsal etməsinə və xidmətlər göstərməsinə imkan yaradır. Xüsusilə qeyd etmək lazımdır ki, bir sıra ölkələrdə istehsal infrastrukturunun

inkişaf səviyyəsinin aşağı olması həmin ölkələrin iqtisadiyyatlarının rəqabət qabiliyyətinin yüksəlməsinə mane olur.

Müvafiq olaraq Azərbaycan Respublikasında əsas kommunal infrastruktur obyektlərinin istismara verilməsi dinamikasının nəzərdən keçirilməsi məqsədəuyğun olardı. Azərbaycan Respublikasında kommunal infrastruktur sahəsində əsas obyektlərin işə salınması dinamikası qrafik 1-də öz əksini tapmışdır.




**Qrafik 1. Kommunal obyektlərin istifadəyə verilməsi (kilometr).**[3]

Təqdim edilən məlumatlar bir daha onu göstərir ki, Azərbaycan Respublikasında kommunal təsərrüfat obyektlərinin işə salınmasında mənfi dinamika müşahidə olunur.

Müsbət dinamika ancaq 2012-ci ildən dəmir yolları, uçuş-eniş zolaqlarında və neft borularının tikintisində müşahidə edilmişdir.

Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su, qaz) inkişafı üzrə Strateji Yol Xəritəsinin 2019-ci ildə reallaşdırılması nəticələrinin monitorinqi bəyan edilmişdir.

Qeyd etmək lazımdır ki, bu Strateji Yol Xəritəsi 7 strateji məqsəddən ibarətdir və ümumi reallaşdırılması səviyyəsi 68% yerinə yetirilmişdir.

---

[3] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi https://www.stat.gov.az/source/construction/az/3.30.xls

Strateji Yol Xəritəsi çərçivəsində 2019-ci ildə nəzərdə tutulmuş tədbirlərin 55%-i yerinə yetirilmiş, 25%-i qismən reallaşdırılmış, 20%-i reallaşdırılmamışdır.

Kommunal xidmətlər sektorunun dayanıqlılığı və səmərəliliyinin təmin edilməsi üçün kommunal xidmətlər sektorunun tənzimlənilməsi sözü gedən Strateji Yol Xəritəsinin birinci məqsədidir, müvafiq dövr ərzində tədbirlərin 91%-i həyata keçirilmişdir, lakin 9%-i reallaşdırılmamış qalmışdır. Bu strateji məqsədə nail olunması üçün ölkə Prezidentinin 2017-ci il 22 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu “Enerji Məsələlərini Tənzimləmə Agentliyi” yaradılmışdır. Bu qurumun başlıca vəzifələrindən biri ölkədə elektrik və istilik enerjisi, həmçinin qaz təchizatı sahələrində istehsalçılar, ötürücülər, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin tənzimlənməsi, eyni zamanda müəssisələrin istehsal-təsərrüfat fəaliyyətinin təhlili, mövcud strukturunun yenilənməsi tədbirləri ilə əlaqədar səmərələşdirici təkliflərin verilməsi, investisiyaların cəlb edilməsi sahəsində stimullaşdırıcı mexanizmlərin hazırlanması, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarətin təşkilidir.[4]

Strateji Yol Xəritəsinin altıncı strateji məqsədi tədbirləri 50% yerinə yetirilmişdir-“İtkilərin azaldılması və su təchizatının səmərəliliyinin təmin olunması”, nəzərdə tutulmuş tədbirlər 50%, yəni qismən yerinə yetirilmişdir. Qeyd edilən istiqamətdə tədbirlərin reallaşdırılması çərçivəsində Abşeron yarımadasında su təchizatı və kanalizasiya üzrə zəif infrastrukturun inkişaf etdirilməsi tədbirləri planı işlənilib hazırlanmış, reallaşdırılmasına başlanmışdır. Eyni zamanda 2018-2028-ci illərdə infrastruktura zəruri investisiya məsrəfləri də təsbit olunmuşdur.

Qeyd etmək lazımdır ki, rəsmi məlumatlara görə 2018-ci ildə Azərbaycan Respublikası əhalisinin 95,2%-i təbii qazla təmin olunmuşdur[5].

---

[4] Azərbaycan Respublikası Energetika Nazirliyinin rəsmi internet səhifəsi, https://minenergy.gov.az/az/ministry/nazirliyin-tabeliyinde-olan-qurumlar

[5] “Turan” informasiya agentliyi.

Lakin onu da qeyd etmək lazımdır ki, ölkənin qazlaşdırılması ilə bağlı mühəndis layihələrinin reallaşdırılması tempi bir qədər aşağı düşmüşdür. Bütünlükdə respublikada mühəndis şəbəkələrinin 98%-i yenilənmişdir. Yaxın vaxtlarda Bakı və ətraf rayonlarda təmir-tikinti işlərinin aparılması ilə bağlı layihələndirmə işlərinin görülməsi nəzərdə tutulur.

Nümunə üçün qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin[6] Bakının Xəzər rayonunda Zirə, Türkan yaşayış məntəqələrində, həmçinin Pirallahı qəsəbəsində su təchizatı və kanalizasiya şəbəkəsinin bərpası ilə əlaqədar əlavə tədbirlər haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı xüsusi olaraq qeyd edilə bilər.

Dissertasiyanın **"Şaxələndirilmiş iqtisadiyyatın infrastruktur təminatı mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri»** adlı üçüncü fəslində ölkədə istehsal infrastruktur sistemlərinin inkişaf strategiyasının formalaşdırılması və proqnozların tətbiqi, istehsal infrastrukturun tənzimlənməsinin təkmilləşdirilməsi, kommunal infrastruktur sahəsində institusional islahatların əsas istiqamətləri kimi məsələlər tədqiq olunub və elmi cəhətdən nəticələr ümumiləşdirilib.

İstehsal infrastrukturu milli və regional səviyyələrdə milli və regional iqtisadiyyatın sosial-iqtisadi siyasətlə təmin edən, fəaliyyətdə olan istehsal-iqtisadi siyasət modelinin formalaşması prosesinin təcəssümüdür. İstehsal infrastrukturunun inkişaf səviyyəsinə uyğun olaraq milli və regional iqtisadiyyatın inkişaf səviyyəsi barəsində müəyyən mühakimələr irəli sürmək mümkündür:

1. İstehsal infrastrukturunun inkişaf etdirilməsi ilə bağlı müvafiq inkişaf strategiyaların hazırlanması bu sahənin idarəetmə problemləri ilə bağlı araşdırmaların aparılmasını zəruri edir.

2. Kommunal infrastruktur sisteminin tərkibinə su, istilik və elektrik təchizatı ilə bağlı boru kəmərləri, elektrik xətləri, su təmizləyici qurğular, kanalizasiya xətləri və digər obyektlər daxildir. Kommunal infrastruktur obyektləri bələdiyyələrin ərazisi daxilində yerləşir və əhalini mənzil-kommunal təsərrüfatı xidmətləri ilə təmin edir.

[6] Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ hüquqi aktların vahid internet elektron bazası http://www.e-qanun.az/framework/37145

3. Kommunal infrastruktur insanların həyat fəaliyyətinin təmin olunması ilə bağlı istehlak xidmətlərinin məcmusu kimi də diqqəti cəlb edir.

Aparılmış təhlillər göstərir ki, ölkədə kommunal infrastrukturun inkişaf etdirilməsi üçün çox böyük imkanlar mövcuddur. Burada əsas yeri kommunal infrastrukturun fəaliyyəti üçün zəruri olan resurs təminatı və həmin infrastruktur obyektlərinin fəaliyyətinə olan tələbin daimi artması zərurəti göstərilə bilər. Mövcud imkanlardan səmərəli istifadə etmək üçün həyata keçirilməli olan tədbirlər içərisində institusional islahatlar xüsusi yer tutur. Bunlar ilk növbədə innovasiyalar əsasında kommunal infrastrukturun müasirləşdirilməsinin idarə edilməsi metodologiyası ilə bağlıdır. Kommunal infrastrukturda həyata keçirilən institusional islahatların əsas istiqamətləri bunlardır: mənzil-kommunal təsərrüfatının idarə edilməsində yerli özünüidarəetmənin rolunun yüksəldilməsi; müxtəlif mülkiyyət formaları üzrə təsərrüfat subyektlərinin müstəqilliyi və məsuliyyətinin artırılması; kommunal infrastruktur təsərrüfatının idarə olunmasının əsasını mülkiyyətçi-istifadəçi münasibətlərinin təşkili və funksiyaların rasional bölgüsünün təşkil edilməsi üzərinə keçirilməsi.

Qeyd etmək lazımdır ki, Strateji Yol Xəritəsində kommunal infrastruktur sahəsində bir sıra institusional hədəflər təsbit olunmuşdur. Lakin müvafiq olaraq həmin hədəflərin də bir qədər dəqiqləşdirilməsi məqsədəuyğun olardı (bax sxem 1).

Burada başlıca strateji hədəf kommunal xidmətlər sektorunun dayanıqlı və səmərəli tənzimlənməsinə nail olunmasıdır. Bunun üçün isə prioritetlər müəyyənləşdirilmişdir. Birinci prioritet müstəqil tənzimləyici orqanın və məqsədli fondun yaradılması, səmərəli xidmət və yığım mexanizmlərinin, kadr təminatının formalaşdırılması hesab edilir. Eyni zamanda strateji hədəfin prioritetləri aşağıdakı ardıcıllıqda təsbit olunmuşdur: kommunal xidmətlər sektorunda vahid tənzimləyici orqanın yaradılması; kommunal xidmətlər sektorunda məqsədli fondun yaradılmasının nəzərdən keçirilməsi; kommunal xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlərin davam etdirilməsi; kommunal xidmət haqları üzrə yığımın təkmilləşdirilməsi; kommunal xidmətlər sektorunda kadr potensialının təkmilləşdirilməsi; kommunal xidmətlər sektorunda təkmil normativ-hüquqi bazanın yaradılması.




**Sxem 1. Azərbaycan Respublikasında 2025-ci ilə qədər kommunal infrastrukturun inkişaf etdirilməsi üçün institusional strateji hədəflər.**[7]

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi təklif və tövsiyələri əsasən bu şəkildə təsnifləşdirmək mümkündür:**

1. İstehsalın inkişaf səviyyəsi və hazır məhsulun, əmtəə ehtiyatlarının həcminin artmasından asılı olaraq canlı və maddiləşmiş məcmu ictimai əməyin, istehsal vasitələri, istehlak predmetləri formasında ehtiyatların saxlanması və daşınmasına ehtiyac vardır. Məhsulun dövriyyəsi prosesi istehsalın ardıcıl həlqələrını birləşdirir, ictimai əmək bölgüsü sayəsində yaranır və onun vacib şərtlərindən birinə çevrilir.

2. İnfrastrukturun tərkibinə daxil olan yarımsistemlərin ümumi xüsusiyyətləri və əlamətləri vardır. Onların ümumi xüsusiyyətləri və əlamətləri məqsəd və vəzifələrə uyğun formalaşır:

- istehsal infrastrukturun fəaliyyətindən irəli gələn effektlərin onun özündə deyil, ölkənin və regionların istehsal-təsərrüfat komplekslərində əldə edilməsi;

[7] Mənbə: Sxem müəllif tərəfindən tərtib edilib.

- əsas istehsal sahəsi ilə müqayisədə istehsal infrastrukturunun qabaqlayıcı inkişaf effektlərinə nail olunması;

- infrastruktur məhsullarının istehsalı və istehlakı proseslərinin bir-birindən ayrılmazlığı, onun toplanması, saxlanılması, anbarlaşdırılmasının qeyri-mümkünlüyü, ehtiyat güclərinin yaradılmasını tələb edir.

3. Fikrimizcə, infrastruktur - inteqral anlayışdır, özündə çox saylı sahələri və fəaliyyət növlərini birləşdirir, onlardan hər biri bu və ya digər funksiyanı yerinə yetirərək cəmiyyətin infrastruktur xidmətlərinə olan müxtəlif tələbatlarını təmin edir. İnfrastruktur xidmətlərinin rəngarəngliyi cəmiyyətdəki tələbatların, məqsəd və vəzifələrin müxtəlifliyi ilə bağlıdır. Həmin tələbatların təmin edilməsi, məqsəd və vəzifələrin yerinə yetirilməsi infrastrukturun fəaliyyəti ilə bağlıdır.

4. Xüsusi olaraq qeyd etmək lazımdır ki, infrastruktur sektoru ictimai əmək bölgüsünün dərinləşməsi nəticəsində formalaşmışdır. Sahənin daha da inkişaf etməsi maddi istehsalda məhsuldarlığın artması nəticəsində baş verir, bütün bunlar xidmətlərin istehsalı üçün resursların cəlb edilməsinə imkan yaradır.

5. Aparılan araşdırmalar göstərdi ki, şaxələndirilmiş iqtisadiyyatda istehsal və kommunal infrastrukturun inkişafının endogen əsaslarının təhlili belə qiymətləndirmə parametrlərinə əsaslanır: öz vəsaitlərində investisiya qoyuluşlarının həcmi; öz vəsaitlərindən yatırılan investisiyaların kənardan cəlb edilmiş investisiyalara olan nisbətləri; bank kreditlərinin müəssisələrin mənfəətlərindən yatırılmış investisiyalara nisbəti; müəssisələrin öz vəsaitlərindən investisiya qoyuluşlarının regional büdcədən investisiya qoyuluşlarına olan nisbəti və s.

6. İstehsalda elmi-texniki tərəqqinin nəticələrinin reallaşdırılması istehsal infrastrukturunun bölmələrinin təkmilləşdirilməsini tələb edir. Eyni zamanda, istehsal infrastrukturunun formalaşması bütün iqtisadiyyatın tələbatlarına uyğun sənaye sahəsinin yaranmasına qədər formalaşmalıdır.

7. Regionlarda istehsal infrastrukturunun funksiyalarının aşağıdakılarla tamamlanması təklif edilir:

- Region iqtisadiyyatının inkişaf etdirilməsi risklərinin azaldılması və bölgüsü;

- Regionun istehsal sferasının özünü tənzimləməsi üçün iqtisadi mexanizmlərin tətbiq edilməsi ilə müvafiq şəraitin yaradılması;
- İstehsal subyektləri və sosial obyektlər üçün zəruri xidmətlərin göstərilməsi;
- Regionun müxtəlif təsərrüfat subyektlərinin qarşılıqlı əlaqə və inkişaf proseslərinin fəallaşdırılması.

8. Transformasiyalar şəraitində bir sıra problemlərin həlli, idarəetmə strukturlarının formalaşdırılmasını, beynəlxalq və daxili marşrutlar üzrə infrastruktur şəbəkələrinin fəaliyyətinin tənzimlənməsini, xidmətlər bazarının bütün iştirakçılarının bir-biri ilə fəaliyyətlərinin uzlaşdırılması və əlaqələndirilməsini (yük sahibləri, yükləri göndərənlər, yükləri alanlar, yük daşıyanlar, ekspeditorlar, gömrük brokerləri, maliyyə-kredit və sığorta şirkətləri) zəruri edir.

9. İstehsal və kommunal infrastrukturunun inkişaf etdirilməsi problemləri araşdırılarkən belə bir qənaətə gəlmək mümkündür ki, həmin sahə ancaq milli iqtisadiyyatın tələbatı və ehtiyacları üçün fəaliyyət göstərmişdir. Lakin xüsusi olaraq qeyd etmək lazımdır ki, infrastrukturun inkişafında təxirəsalınmaz bir sıra problemləri vardır ki, onları ənənəvi idarəetmə üsulları çərçivəsində həll etmək qeyri-mümkündür. İnfrastrukturun dövlət və regional inkişaf konsepsiyalarının hazırlanması və reallaşdırılması zamanı onun ayrı-ayrı problemlərinin geoiqtisadi potensial nəzərə alınmaqla həyata keçirilməsini təklif edirik.

10. İstehsal və kommunal infrastrukturuna dövlət xərclərinin dinamikası bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif amillərin təsirindən asılıdır. Onların artması təsərrüfat əlaqələri və sferasının genişlənməsi ilə bağlıdır. Texnoloji irəliləyişlər bütün istehsala, infrastruktura, iqtisadiyyata və dövlətə yeni tələblər diktə edir. Tədqiqat işində qeyd edilənlərin ümumiləşdirilməsi əsasında belə bir qənaətə gəlinir ki, iqtisadi şəraitin dəyişməsi səbəbindən dövlətin istehsal və kommunal infrastrukturunun fəaliyyətinin tənzimlənməsində iştirakı da dəyişiləcəkdir.

11. Aparılmış təhlillər göstərdi ki, Abşeron iqtisadi rayonunda enerji resurslarının daxili təminat əmsalı iqtisadi rayonda enerji resurslarnın istehsalına uyğundur (2018-ci ildə 3,2-yə bərabər olmuşdur). Azərbaycanda bu iqtisadi rayon enerji tutumlu müəssisələrin

yerləşdirilməsi üçün ən uyğun iqtisadi rayonudur. İqtisadi rayonda iri müəssisələr yerləşdirilmişdir - ucuz maliyyətli elektrik enerjisi istehsal edən müəssisələrin məhsullarının böyük bir hissəsi iqtisadi rayon hüdudlarında tələb görmür, bu səbəbdən də iqtisadi rayonun hüdudlarından kənara nəql edilir. Bütün bu şərtlərə tam olaraq əməl edilməsi üçün, eyni zamanda Azərbaycanda fəaliyyət göstərən energetika bazarında islahatların aparılması tələb olunur. Burada ən mühüm islahat xarakterli tədbir enerji istehsalçısı və istehlakçısının əlavə olaraq yaradılmış regional elektrik enerjisi bazarında birbaşa olaraq müqavilə bağlamalarına imkan yaradılmasıdır.

12. Tədqiqatlar nəticəsində istehsal və kommunal infrastrukturunun vəziyyəti qiymətləndirilərkən kompleks yanaşmadan istifadə edilməsi, bu və ya digər istehsal və kommunal infrastrukturu obyektlərinin təsərrüfat fəaliyyətindəki rolunun artırılmasını, son nəticədə isə onların kəmiyyət və keyfiyyətlərinin rasional qiymətləndirilməsi metodu təklif edilib.

13. Milli iqtisadiyyatın və ölkənin regionlarının potensialı elə bir göstəricidir ki, onun vasitəsi ilə infrastrukturun fəaliyyətini və inkişaf strategiyasını qiymətləndirmək mümkündür. Bu məqsədlərlə üç qrup göstəricilərdən istifadə edilmişdir. Birinci qrupa bilavasitə resurslar, ikinci qrupa potensialın inkişaf etdirilməsi göstəriciləri, üçüncü qrupa isə milli iqtisadiyyatın məhsuldarlıq potensialını xarakterizə edən göstəricilər daxil edilmişdir.

14. Ümummilli maraqların ifadəçisi kimi dövlət tənzimlənməsinin səmərəliliyinin qiymətləndirilməsi ilə əlaqədar qeyd etmək lazımdır ki, burada hər hansı ümumi və aşkar meyarlar yoxdur. Hər bir ölkədə bu vəzifənin öhdəsindən müstəqil şəkildə gəlirlər. İstehsal və kommunal infrastrukturunun fəaliyyətinin tənzimlənməsi məsələsi Azərbaycan Respublikasında da ciddi məsələlərdən biri kimi xüsusi olaraq qeyd edilə bilər. Burada ən azı keyfiyyət göstəriciləri təsbit olunmalı, həmin göstəricilər əsasında həyata keçirilən dövlət tənzimlənməsinin uğurları və uğursuzluqları müəyyənləşdirilməlidir.

15. Ölkə və regional iqtisadiyyatın strateji məqsədlərinə nail olmaq üçün institusional dəyişikliklərin aparılması tələb olunur. Sonuncu isə, öz növbəsində, makroiqtisadi amillərlə yanaşı ölkə iqtisadiyyatının xüsusiyyətlərinə və onun prioritetlərinə əsaslanır.

İnstitusional islahatların məqsədlərinin bunlar olması məqsədəuyğundur: ölkə və region iqtisadiyyatında struktur transformasiyasının aparılması üçün, yaxın 2-3 il ərzində kommunal infrastruktur obyektlərinin fəaliyyətinin sabitləşməsi və inkişafı sahəsində məqbul göstəricilərin müşahidə edilməsi; səmərəli institusional idarəetmə strukturu bazasında mövcud potensialdan rasional istifadə edilməsi üçün şəraitin yaradılması; bazar mühitinin yaradılması və müasir dövlət tənzimlənməsi mexanizmlərinin fəaliyyət göstərməsi üçün şəraitin yaradılması.

16. Apardığımız təhlil əsasında belə qənaətə gəlmək olar ki, kommunal infrastruktur insanların normal həyat fəaliyyətinin təmin olunması ilə bağlı istehlak xidmətlərinin məcmusu kimi də diqqəti cəlb edir. Kommunal infrastrukturun iki əsas əlaməti qeyd olunmalıdır. Birinci əlamət funksional əlamətdir. Bu əlamət mülkiyyətin, infrastruktur obyektinin təyinatı ilə, hansı məqsədlər üçün istifadə edilməsi ilə bağlıdır. İkinci əlamət isə infrastruktur obyektinin yerləşməsi ilə bağlıdır. Kommunal infrastrukturun idarəedilməsində üç əsas prinsip diqqəti cəlb edir: bazar tənzimlənməsi prinsipi; sosial-tənzimlənmə prinsipi; strateji inkişaf prinsipi. Azərbaycanda son 15-16 il ərzində infrastrukturun müasirləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Eyni zamanda Strateji Yol Xəritəsində kommunal infrastrukturun fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar institusional islahatların həyata keçirilməsi ilə bağlı strateji hədəflərin reallaşdırılması mexanizmlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməlidir.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. Müasir dövrdə istehsal infrastrukturunun mahiyyəti və funksiyaları. AzMİU. Tikintinin iqtisadiyyatı və menecment. Elmi-praktiki jurnal. Bakı № 5, 2018. Səh. 36-41.

2. İstehsal infrastrukturunun xüsusiyyətləri milli iqtisadiyyatın diversifikasiyasının hədəfi kimi. AzMİU. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsinin aktual problemləri mövzusunda respublika elmi-praktik konfransın materialları. Bakı 19 dekabr 2018. Səh. 77-80.

3. Формирование стратегии развития систем производственной инфраструктуры в Азербайджане и применение прогнозов ее развития. Экономика и предпринимательство. Москва, № 2 (103) РФ. 2019 г. с. 569-574.

4. Функции и содержание производственной инфраструктуры в условиях развития диверсифицированной экономики Азербайджана. Журнал Российское предпринимательство, Москва, № 2(298), Февраль 2019, стр. 511-525.

5. Milli iqtisadiyyatın infrastruktur təminatının dinamikası. AzMİU. Tikintinin iqtisadiyyatı və menecment. № 2, Bakı 2019. Səh. 100-109.

6. İstehsal infrastrukturunun fəaliyyətinin tənzimlənməsinin səmərəliyinin dəyərləndirilməsi metodikası. AMEA. İqtisadiyyat İnstitutu. «Elmi əsərlər» - № 3- 2019. Səh. 62-67.

7. Müasir şəraitdə infrastruktur sistemlərin əsas inkişaf meylləri. Kooperasiya – elmi-praktiki jurnal. “Azərittifaq”, Azərbaycan Kooperasiya Universiteti, Kooperasiya – elmi-praktiki jurnal. “Azərittifaq”, Azərbaycan Kooperasiya Universiteti, № 3 (54), Bakı 2019. Səh. 210-216.

8. Kommunal infrastruktur sahəsində institusional islahatların əsas istiqamətləri. AzMİU. Tikintinin iqtisadiyyatı və menecment. № 3, Bakı 2019. Səh. 48-55.

9. Şaxələndirmə strategiyasının regional sosial-iqtisadi sistemlərinin inkişafının sürətləndirilməsində rolu. “Şaxələndirilmiş iqtisadiyyatın infrastruktur təminatı: əsas meyllər və inkişaf istiqamətləri” mövzusunda beynəlxalq elmi konfrans. Bakı -2019.

10. Сущность, элементы и основные функции производственной инфраструктуры. Инновационные подходы в современной науке. Сборник статей по материалам LXIV международной научно-практической конференции. № 4(64). Москва, 2020. Стр.59-63.

11. Особенности организации инфраструктуры в условиях диверсификации национальной экономики. Економіка та Держава. Украина. Международной научно-практический журнал. № 1. Стр. 87–91.

12. Müasir dövrün çağırışları kontekstində istehsal infrastrukturu sistemlərinin inkişaf strategiyasının hazırlanması xüsusiyyətləri. AzMİU. Tikintinin iqtisadiyyatı və menecment. Elmi-praktiki jurnal. № 2. Bakı 2020. Səh 236-240.

13. Milli iqtisadiyyatın şaxələndirilməsi şəraitində infrastruktur təminatının inkişaf istiqamətləri. AzMİU. Tikintinin iqtisadiyyatı və menecment. Elmi-praktiki jurnal. № 4. Bakı 2020. Səh 9-18.

14. Azad edilmiş ərazilərin post-konflikt dövründə bərpası və inkişafının təşkilati-idarəetmə mexanizmi. IV Beynəlxalq Ukrayna-Azərbaycan Elmi-praktik konfransın elmi materiallar toplusu. Milli Universitet «Poltava Politexnik Yuri Kondratyuk adına» Azərbaycan Memarlıq və İnşaat Universiteti. BUILDING INNOVATIONS – 2021.

15. Management in the Construction Sector Using Smart Technologies: European Experience. Proceedings of the 3rd International Conference on Building Innovations. Baku, Azerbaijan – 2021.

Dissertasiyanın müdafiəsi **26 yanvar 2022**-ci il tarixində, saat 14:00-da Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən ED 2.42 Birgə Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az 2000, Azərbaycan Respublikası, Gəncə şəhəri, Atatürk prospekti, 450

Dissertasiya ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat **27 dekabr 2021**-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.12.2021
Kağızın formatı: (210x297) ¼
Həcm: 41535 işarə
Tiraj: 100